## «Vergilər və nağdsız ödənişlər» mövzusunda açıq dərs

Bakı Şəhər Vergilər Departamenti tərəfindən paytaxtda yerləşən orta məktəb şagirdləri ilə zaman-zaman vergilərə həsr olunan mövzularda açıq dərslər keçirilir. Cari ilin ötən dövrü ərzində orta məktəblərdə eyni məzmunlu 40 tədbir keçirilmişdir. Ötən həftə Yasamal rayonunda yerləşən 308 saylı orta məktəbdə 4-cü sinif şagirdləri ilə açıq dərs təşkil olunmuşdur.

Məktəbdə vergi fənninin tədrisi ilə məşğul olan Səbirə Zeynalova «Vergilər və nağdsız ödənişlər» mövzusunda dərs keçmişdir. Açıq dərsdə vergilərin tarixi, əhəmiyyəti, rüsumlar, dövlət büdcəsinin gəlir və xərclərinin mənbə və istiqamətləri barədə danışılmışdır. Qeyd olunmuşdur ki, nağdsız ödənişlərin həyata keçirilməsi Vergilər Nazirliyinin daim diqqət mərkəzindədir və bu sahədə mühüm işlər görülmüşdür. POS-terminalların quraşdırılması, bu terminallar vasitəsilə ödənişlərin edilməsi vergidən yayınma hallarının qarşısının alınmasında, vergilərin vaxtında dəvlət büdcəsinə ödənilməsində mühüm rola malikdir. Dərs zamanı vergilər mövzusunda atalar sözləri və şeirlər söylənilmiş, vergilərin və nağdsız ödənişlərin əhəmiyyəti şagirdlər tərəfindən səhnələşdirilərək nümayiş etdirilmişdir.

Bakı Şəhər Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət idarəsinin Məlumatlandırma və vergi təbliğatı şöbəsinin rəisi Məhərrəm Əmiraslanov orta məktəblərdə vergilərin tədrisi sahəsində nazirliyin gördüyü işlər, o cümlədən 3-5, 5-8, 9-11-ci siniflər üçün Təhsil Nazirliyi ilə birgə dərs vəsaitlərinin hazırlanması, onların pulsuz paylanması, Bakı şəhərində 46 və 225 saylı orta məktəblərdə vergilərə dair metodiki kabinetlərin fəaliyyəti barədə məlumat vermişdir.

AYTƏN